**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIQ KOMPLEKSİNİN İQTİSADİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5312.01 "Sahə iqtisadiyyatı"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Leyla Elxan qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Sadıq Vəli oğlu Salahov**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Püstə Oruc qızı Fərhadi**

iqtisad elmləri namizədi, dosent
**Azər Ağazeynal oğlu Qurbanzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurası.

Birgə Dissertasiya şurasının
sədri: AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının
elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə
doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri:
iqtisad elmləri doktoru, professor,
Əməkdar kənd təsərrüfatı işçisi
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikasının post-neft dövrünə qədəm qoymuş olduğu hazırkı şəraitdə iqtisadiyyatımızda mühüm yer tutan aqrar sahənin inkişafının daha da sürətləndirilməsinə ehtiyac güclənir. Aqrar sahənin ölkəyə daxil olan valyuta gəlirlərində mühüm rol oynayacağı nəzərə alınmaqla sahəyə məxsus ixrac potensialının səmərəli istifadə olunması problemləri gündəlikdə durur. Sözügedən istiqamətdə ölkədə üzümçülük və şərabçılıq sahəsinin dinamik inkişafı müstəsna əhəmiyyət kəsb edir.

Müstəqilliyi bərpa etdikdən sonra milli iqtisadiyyatın yenidən strukturlaşdırılmasında aqrar sahəyə yeni baxış müstəvisində üzümçülük və şərabçılıq özünəməxsus rolu ilə diqqət mərkəzində olmağı tələb edir. Digər sahələrdə olduğu kimi burada da inkişafın yeni keyfiyyət səviyyəsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun ideyası və bilavasitə təşəbbüsü sayəsində Azərbaycan Respublikasının "Üzümçülük və şərabçılıq haqqında" Qanunu (2002-ci ildə) qəbul edilmiş, ölkə regionlarının sosial və iqtisadi inkişafına dair dövlət proqramlarında, habelə Azərbaycan Respublikasında 2008-2015-ci illərdə ölkə əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında üzüm istehsalının dəstəklənməsi nəzərdə tutulmuşdur. Ulu öndərin ideyalarının layiqli və yaradıcı davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda (2011-ci il 15 dekabr tarixli sərəncam), eyni zamanda ölkə başçısının təsdiq etdiyi "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nda (3 may 2018-ci il tarixli sərəncam) sahənin inkişaf strategiyasını formalaşdıran kompleks tədbirlər sistemi müəyyən edilmişdir.

Müstəqilliyin üçüncü onilliyində üzümçülükdə, daha yüksək məhsuldarlığa malik sortlara üstünlük verilməklə mütərəqqi texnologiyalar əsasında üzüm plantasiyalarının salınması, keyfiyyətcə eyni yeni texniki təminatdan və modernləşdirilmiş

texnoloji xətlərdən və avadanlıqlar kompleksindən istifadə etməklə geniş çeşidli şərab məhsulları istehsalında ciddi və əhatəli addımlar atılmışdır. Sadalanan və bir sıra digər yeniliklər hesabına Azərbaycanda, obyektiv səbəblərdən müşahidə olunan maliyyə, iqtisadi və struktur böhranı əlamətlərinin qarşısı qismən alınmış, postsovet məkanında üzümçülük və şərabçılıq sahəsində baş verən durğunluq və tənəzzül prosesləri dayandırılmışdır.

Bununla yanaşı, nəzərə almaq lazımdır ki, hələlik üzümçülüyük və şərabçılığın inkişafı sahəsində mövcud potensialın tam reallaşdırılması təmin olunmamışdır. Ölkəmizdə üzüm və onun emalından alınan məhsulların zəruri sürətlə yüksəldilməsinin davamlı meyli qərarlaşmamışdır. Sahədə mövcud olan struktur problemlərinin həllinə, şərabçılıq məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, xarici bazarlara çıxışın genişləndirilməsi məsələlərinin həllinə ehtiyac vardır.

Üzümçülük və şərabçılığın inkişafının iqtisadi problemləri, o cümlədən iqtisadiyyatda sistem dəyişiklikləri aparılması ilə əlaqədar meydana gələn məsələlər Azərbaycanın və xarici ölkələrin alimləri tərəfindən tədqiq edilmişdir. Bu istiqamətdə Z.Səmədzadənin, İ.Alıyevin, B.Ataşovun, V.Abbasovun, M.Salmanovun, İ.İbrahimovun, İ.Qarayevin, A.Nadirovun, S.Salahovun, H.Xəlilovun, xarici iqtisadçılardan isə V.Berzinin, M.A.Xailimaqemedovun, A.Zolataryevin əsərlərində müasir şəraitdə üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı ayrı-ayrı məsələlər araşdırılmış, nəzəri və əməli yönümdə bir sıra maraqlı fikirlər irəli sürülmüş, təkliflər hazırlanmışdır.

Şərh olunanlarla yanaşı onu da göstərmək lazımdır ki, adı çəkilən tədqiqatçılar tərəfindən üzümçülüyün və şərabçılığın inkişafının tənzimlənməsi problemləri əlahiddə və kompleks bir tədqiqatın predmeti kimi ortaya qoyulmamışdır. Odur ki, həmin sahədə tənzimləmənin səmərəli fəaliyyət göstərən iqtisadi mexanizmlərinin yaradılmasının əsas istiqamətləri kompleksli araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti - ölkədə üzümçülük və şərabçılıq sahəsində fəaliyyət göstərən müəssisələrdir. Tədqiqatın predmeti üzümçülük və şərabçılığın tənzimlənməsinin

iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətləri, üsul və vasitələridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi üzümçülük və şərabçılıq sahəsində dövlət tənzimlənməsinin xüsusiyyətləri və onları şərtləndirən amillərin açıqlanması, müasir mərhələdə iqtisadiyyatın üzümçülük və şərabçılıq sektorunda tənzimlənmənin iqtisadi vasitələri və mexanizmlərinin formalaşmasının əsas istiqamətlərinin araşdırılması, habelə bu sahədə iqtisadi tənzimlənmə sisteminin əsas parametrlərinin yaxşılaşdırılmasına yönəlmiş elmi-təcrübi əhəmiyyətli tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

İddiaçı tərəfindən prioritetliyi əsaslandırılmış əsas məqsədə nail olunması ilə bağlı vəzifələr kimi aşağıdakılar müəyyən edilmişdir:

- üzümçülük və şərabçılıq sahəsində dövlət tənzimlənməsinin xüsusiyyətlərini və onları şərtləndirən amilləri açıqlamaq;
- üzümçülük və şərabçılığın iqtisadi tənzimlənmə mexanizminin strukturunu araşdırmaq;
- postsosialist iqtisadiyyatı şəraitində üzümçülük və şərabçılığın tənzimlənməsi sisteminin formalaşmasının gedişini tədqiq etmək;
- üzümçülük və şərabçılığın iqtisadi tənzimlənmə mexanizminin formalaşmasında mövcud meylləri müəyyən etmək;
- üzümçülük və şərabçılığın iqtisadi vasitələrlə tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərini açıqlamaq;
- üzümçülük və şərabçılıq sahəsinin investisiya təminatının yaxşılaşdırılması yollarını araşdırmaq;
- üzümçülük məhsulları istehsalının və ixracının dinamik artırılmasının səmərəli mexanizmlərinin yaradılması məsələlərini tədqiq etmək.

**Tədqiqatın metodları.** Tədqiqat əsərinin konseptual nəzəri və metodoloji əsaslarını milli iqtisadiyyatın aqrar-emal sektorunun, o cümlədən üzümçülük və şərabçılığın inkişafını, bu sahədə iqtisadi tənzimləmə problemlərini araşdıran iqtisadçı alimlərin elmi araşdırmalarının mühüm nəticələri, Azərbaycan Respublikasının müvafiq qanunları, ölkə başçısının fərman və sərəncamları, habelə digər normativ-hüquqi aktlar təşkil etmişdir. Tədqiqat prosesində

müşahidə, monoqrafik, müqayisəli təhlil, sistemli yanaşma, iqtisadi statistik və b. metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya tədqiqatından əldə edilən elmi yeniliklər nəzərə alınaraq aşağıdakı əsas müddəalar müdafiəyə çıxarılır:

- üzümçülük və şərabçılıq sahəsində iqtisadi tənzimləmə mexanizmlərinin aspektlərinin ümümiləşdirilməsinə və qiymətləndirilməsinə ehtiyac duyulur;
- sahədə iqtisadi tənzimləmə mexanizminin funksional strukturunun müasir xarakteristikasının verilməsinə zərurət meydana çıxmışdır;
- üzümçülük və şərabçılığa dövlət himayədarlığı sisteminin qurulmasının prioritetlərinin müəyyən edilməsi zəruri şərtə çevrilmişdir;
- sahə məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin təşəkkülünün əsas mərhələlərinin əsaslandırılması müasir mərhələdə tədqiq edilməmişdir;
- üzümçülük və şərabçılıq məhsulları istehsalının artırılması və rəqabətqabiliyyətinin yüksəldilməsinə iqtisadi mexanizmlərin rolunun artırılması və stimullaşdırılmasına, onun təkmilləşdirilməsinə zərurət yaranmışdır;
- üzümçülük və şərabçılığın inkişafı üzrə strategiyanın reallaşdırılması istiqamətində sahəyə investisiya qoyuluşlarının stimullaşdırılması sisteminin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması iqtisadi inkişafın tələblərindən irəli gəlir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardır:

- üzümçülük və şərabçılıq sahəsində tənzimləmənin xüsusiyyətlərini müəyyən edən amillər və onların təsir mexanizmləri açıqlanmış və təsnifləşdirilmişdir;
- üzümçülük və şərabçılıqda iqtisadi tənzimləmə mexanizminin funksional strukturu açıqlanmış, tənzimləmə modelləri ayrılmış, müəyyənləşdirilmiş və onların əsas cəhətləri göstərilmişdir.
- üzümçülük və şərabçılığa dövlət dəstəyi sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri müəyyən edilmişdir;

- üzüm və şərab məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin formalaşdırılmasının əsas mərhələləri əsaslandırılmışdır;
- üzümçülük və şərabçılığın inkişafı üzrə dövlət tərəfindən müəyyən edilmiş strategiyanın reallaşdırılması vəzifələrinə uyğun olaraq, bu sahəyə investisiya qoyuluşlarının stimullaşdırılmasının təkmilləşdirilməsi barədə əsaslı təklif və tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın məntiqi yekunu kimi iddiaçı tərəfindən irəli sürülmüş təklif və tövsiyələr üzümçülük və şərabçılıq sahəsində səmərəli iqtisadi tənzimləmə mexanizmlərinin formalaşmasına, bu sektora investisiya qoyuluşlarının stimullaşdırılmasının gücləndirilməsinə, istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsində və ixracının artırılmasında iqtisadi vasitələrin rolunun artırılmasına əlverişli təcrübi mühit formalaşdırır.

Dissertasiya tədqiqatında əsaslandırılmış elmi-nəzəri və təcrübi müddəalar, əldə olunmuş nəticələr, müvafiq məqsəd və təyinatlı dövlət proqramlarının, habelə üzümçülük və şərabçılığın dayanıqlı və dinamik inkişafı üzrə strateji xarakterli qərar layihələrinin işlənib hazırlanması və icrası prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 5 məqalədə (1-i xaricdə olmaqla) və 5 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Yerli şərab məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələləri" (Bakı, 2021), "Вопросы регулирования экспорта винодельческой продукции" (Москва, 2021), "Üzümçülük klasterinin inkişafını şərtləndirən amillər" (Bakı, 2020), "Azərbaycanda üzümçülük sahəsinin inkişaf və perspektivləri" (Mingəçevir, 2022), "Ağdamda üzümçülük və şərabçılığın yenidən bərpası" (Ağdam-Bakı, 2022) adlı tezisləri göstərmək olar.

Tədqiqat mövzusu üzrə müəllifin həmçinin "Üzümçülük və şərabçılıq kompleksinin xüsusiyyətləri və sahənin tənzimlənməsini

şərtləndirən amillər" (Bakı, 2019), "Üzümçülük və şərabçılığın inkişafına dövlət köməyinin formalaşdırılması mexanzimləri" (Bakı, 2020), "Azərbaycanda üzümçülüyün və şərabçılığın inkişafı" (Bakı, 2020), "Функции и модели механизма экономического регулирования виноградарства и виноделя" (Москва, 2021), "Üzümçülük və şərabçılıq kompleksində ixracın stimullaşdırılması mexanzimlərinin təkmilləşdirilməsi" (Bakı, 2021) adlı məqalələri dərc olunmuşdur.

Müəllif tərəfindən dissertasiya tədqiqatı çərçivəsində həyata keçirilmiş elmi araşdırmalar sayəsində əldə olunmuş nəticələr, hazırlanmış tövsiyə və təkliflər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu tərəfindən istifadə üçün qəbul edilmişdir. (05 aprel 2022-ci il tarixli arayış)

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Tədqiqatlar Mərkəzi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (11163 işarə), I fəsil (48245 işarə), II fəsil (78577 işarə), III fəsil (67387 işarə), nəticə (9976 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (17120 işarə) üzrə ümumi həcm 243746 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər, diaqramlar, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 215348 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yenilik, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, nəticələrin sınaqdan çıxarılması və istifadə olunması və s. öz əksini tapmışdır.

İşin **"Üzümçülük və şərabçılığın tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** adlı **birinci fəslində,** ilk növbədə üzümçülük

və şərabçılıq sahəsində dövlət tənzimlənməsinin mahiyyəti açıqlanmış, onun özünəməxsus xüsusiyyətləri səciyyələndirilmiş, həmin xüsusiyyətləri şərtləndirən amillər müəyyən olunmuşdur. Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənmə mexanizminin formalaşması və inkişafı məsələlərinə aydınlıq gətirilmiş, həmin mexanizmin funksiyaları və modelləri xarakterizə olunmuşdur.

İnnovasiyaların bu və ya digər fəaliyyət sahəsinin rəqabətədavamlılığında aparıcı amilə çevrildiyi müasir dövrdə üzümçülük və şərabçılıq sahəsinin tənzimlənməsində istehsal və biznes yanaşmalarının vahid rakursda əhəmiyyəti, onların bir-birini tamamlaması halında sinergetik effekt yarada bilir. İnvestor üçün bu həlledici amildir. Üzümçülük və şərabçılıq sahəsində əyaniləşən xarakterik cəhətlər investisiya tələbatında özünü göstərə bilir. İlk növbədə, onu qeyd etmək lazımdır ki, üzümçülük və şərabçılıq, xüsusilə üzümçülük tarixən böyük investisiya tutumluluğu ilə fərqlənmişdir. Üzümçülük və şərabçılıq sahələrinin inkişafı məşğulluq səviyyəsinin yüksəldilməsi və strukturunun yaxşılaşdırılmasında ciddi potensial imkanlara malikdir.

Hazırda qloballaşma prosesləri, pandemiya və regional münaqişələrin ciddi təsiri altında yeni xüsusiyyətlər kəsb edir. İnteqrasiyanın vektorları dəyişir, beynəlxalq iqtisadi əməkdaşlığa və beynəlxalq ticarətin inkişafına yeni amillər, sanksiyalar və embarqolar daha çox təsir göstərir. Bununla belə, şərabların xarıcı bazarların müvafiq seqmentlərində rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edən tənzimləmə tədbirləri, ixrac edilən məhsulun beynəlxalq standartlara uyğun yüksək keyfiyyət göstəricilərinə riayət olunmasını nəzərdə tutur.

Pandemiya bütün fəaliyyət sahələrində olduğu kimi üzümçülükdə və şərabçılıqda problemləri artırmışdır. Bu ilk növbədə satış və loqistika ilə əlaqədardır. Şərab istehlakı, ümumilikdə artsa da onun istehlakçıya çatdırılması prosesində çətinliklər azalmamışdır. Ümumilikdə isə COVİD 19 pandemiyası üzümçülük və şərabçılığın inkişafını bir qədər ləngitmişdir.

İxracın təşviqi proqramları üzrə maliyyə yardımı və yaxud məqsədli vergi güzəştləri tədbirləri çərçivəsində yerli şərab məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətinin dəstəklənməsi

təcrübə kifayət qədər geniş tətbiq edilir. Ümumiyyətlə, yüksək ixrac potensialına malik yerli şərabların xarici bazarlarda mövqe qazanması məqsədilə iqtisadi üsul və vasitələrdən istifadə imkanları daim diqqət mərkəzində saxlanır. Şərabçılıq məhsullarının ixracının, məhz iqtisadi vasitələrlə təşviqi onların beynəlxalq bazarlarda qiymət rəqabətinə davamlılığının yüksəlməsinə imkan verir.

Kömək funksiyası istehsalın genişləndirilməsi və ya sahədə inkişafla bağlı hər hansı problemin əvəzi ödənilmədən, yaxud güzəştli şərtlərlə həlli, həmin məqsədlər üçün maliyyə vəsaitlərinin, habelə digər resursların ayrılması vasitəsilə reallaşdırılır. Stimullaşdırma funksiyası sahənin inkişafını zəruri istiqamətlərə yönəltmək məqsədlərinin reallaşdırılmasına xidmət edir. Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsində nizamlayıcı funksiya da mühüm rola malik olur. Bu funksiya əsasən şərabçılıq məhsulları bazarının tənzimlənməsinə yönəldilir.

Nəzərə almaq lazımdır ki, üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin göstərilən funksiyaları qarşılıqlı əlaqəli şəkildə, həm də paralel olaraq və ya ardıcıl surətdə reallaşdırıla bilər. Funksiyaların həyata keçirilməsi eyni və yaxud da fərqli alətlərlə təmin oluna bilir. Bütün bunlar iqtisadi tənzimləmə funksiyalarını vahid sistemin elementlərinə çevirir. Həmin sistemi aşağıdakı blok-sxem şəkilində göstərmək olar (Sxem 1).




**Sxem 1. Üzümçülük və şərabçılıqda iqtisadi tənzimləmənin funksiyaları və vasitələri**

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin yuxarıda nəzərdən keçirilən funksiyalarının hansının üstünlük təşkil etməsi və iqtisadi vasitələrin hansı yönümdə daha fəal istifadə edilməsindən asılı olaraq tənzimləmənin müxtəlif modellərini ayırmaq mümkündür. Bu istiqamətdə paternalist, stimullaşdırıcı, liberal, qarışıq modellər fərqləndirilə bilər. Paternalist model sahənin inkişafına güclü dövlət himayəsinin təmin olunmasına əsaslanır. Belə bir modelin tətbiqinin zəruriliyi birinci növbədə üzümçülüyün investisiya tutumu yüksək olan sahə olmasından irəli gəlir. Bir çox hallarda bir qayda olaraq, üzümçülüyün rəqabət qabiliyyətinin təmin edilməsi üçün plantasiyaların salınması və bar verən yaşa çatdırılması ilə bağlı xərclərin maliyyələşdirilməsinə, habelə üzümlüklərdə yenidənqurma və modernləşdirmə işlərinin aparılmasına təsirli dövlət köməyinin həyata keçirilməsinə ehtiyac yaranır.

Paternalist modelin tətbiqi zamanı dövlət müstəqim tənzimləmə vasitələri, o cümlədən birbaşa maliyyələşdirmə yolu ilə üzümçülüyün təşəkkülünə, genişləndirilməsinə, xammal emalının təşkili və modernləşdirilməsinə şərait yaradır. Eyni zamanda, bəzi hallarda dövlət daxili bazarın qorunması sahəsində tədbirlər həyata keçirir. İqtisadi tənzimləmənin paternalist modeli üzümçülük və şərabçılığın inkişafına kənardan maliyyə resurslarının cəlb edilməsi imkanlarının geniş olmadığı, habelə sahənin inkişaf etdirilməsinin ölkə üçün önəmli sosial-iqtisadi rola malik olduğu şəraitdə tətbiq edilir. Bu modelin reallaşdırılması üçün başlıca zəmin dövlətin zəruri maliyyə imkanlarına malik olmasıdır.

Stimullaşdırıcı model üzümçülük və şərabçılıqda iqtisadi həvəsləndirmə vasitələrinin fəal istifadəsi əsasında stabilliyin təmin edilməsi, səmərəliliyin yüksəldilməsi və istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin təmin olunmasına yönəldilir. İqtisadi tənzimləmənin bu modeli bir qayda olaraq, üzümçülük və şərabçılıq məhsullarının formalaşmış bazarlarının mövcudluğu şəraitində tətbiq edilir. Model çərçivəsində istifadə edilən iqtisadi vasitələr üstün olaraq, yönəldici funksiyalar yerinə yetirirlər. Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin liberal modeli sahədə investorlar üçün əlverişli fəaliyyət mühitinin yaradılmasına əsaslanır. Bu model baxdığımız əvvəlki digər iki

modeldən fərqli olaraq, dövlətin öz üzərinə əhəmiyyətli iqtisadi yük götürməsini nəzərdə tutmur.

Liberal tənzimləmə modelinə inkişaf edən bazarlar şəraitində, üzümçülük və şərabçılıq sahəsində xarici investisiyalara və rəqabətqabiliyyətli məhsul istehsalı üçün yeni texnologiyalara tələbatların böyük olduğu şəraitdə daha çox ehtiyac yaranır. Həmin modelin reallaşdırılması üçün başlıca zəmin dövlətin investisiyaların cəlb edilməsi və ixrac fəaliyyəti üçün əlverişli şəraitin yaradılması sahəsində davamlı siyasət həyata keçirməsidir.

Üzümçülük və şərabçılığın göstərilən modellərinin hər birinin ayrılıqda "xalis" formada tətbiqinə az-az hallarda təsadüf edilir. Əksər hallarda ayrı-ayrı dövlətlərin müvafiq praktikasında bu və ya digər modelin müxtəlif elementlərinin yanaşı istifadəsinə rast gəlinir. Başqa sözlə, iqtisadi tənzimləmə praktikasının üstün olaraq qarışıq modelə əsaslandığı nəzərə alınmalıdır. Ümumi şəkildə qarışıq modelin strukturunun formalaşmasının aşağıdakı sxemlə də ifadə etmək olar (Sxem 2).




**Sxem 2. Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsinin qarışıq modelinin formalaşması**

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Qarışıq model üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə mexanizmlərini müxtəlif dövrlərdə konkret şəraitə uyğunlaşdırmağa

və sahənin inkişaf məqsədlərinə daha münasib şəkildə yönəltməyə imkan verir.

Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, iqtisadi tənzimləmənin strukturuna görə fərqli xüsusiyyətlərə malik qarışıq modelləri ola bilir. Belə ki, üzümçülük və şərabçılıq sahəsində inkişaf edən bazarlara malik olan ölkələrdə, ilk növbədə sistem transformasiyalarının keçirilmiş olduğu dövlətlərdə, qarışıq tənzimləmə modeli nisbətən daha mürəkkəb strukturlu olur. Qarışıq model "paternalist + stimullaşdırıcı", "stimullaşdırıcı + liberal", həmçinin "paternalist + stimullaşdırıcı +liberal" modellərə aid elementləri və xüsusiyyətləri özündə birləşdirə bilir. İnkişaf etmiş üzümçülük və şərabçılıq sektoruna malik olan ölkələrdə qarışıq tənzimləmə modeli bir qayda olaraq, stimullaşdırıcı və liberal modellərin əsas cəhətlərini özlərində birləşdirirlər.

Müxtəlif tənzimləmə modellərinin əsas cəhətlərini ümumiləşdirilmiş şəkildə aşağıdakı cədvəldəki kimi səciyyələndirmək olar (cədvəl 1). Nəzərə almaq lazımdır ki, üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə modellərinin formalaşması dinamik xarakterə malikdir. Bu baxımdan ayri-ayri modellərinin bir-birini əvəz etməsi də baş verə bilir.

**Cədvəl 1.**

**Üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsi modellərinin əsas cəhətləri**

| № | Modelin adı | Səciyyəvi əlamətləri | Tətbiq olunması şəraiti | Tətbiqi üçün zəminlər | Tətbiqinə dair örnəklər |
|---|---|---|---|---|---|
| 1. | Paternalist model | - üzümçülüyün və şərabçılığın təşəkkülü və inkişafına xidmət edən infrastrukturun birbaşa dövlət investisiyaları ilə maliyyələşdirilməsi;<br>- sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə geniş həcmli subsidiyaların verilməsi | - sahənin inkişafının sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb etməsi;<br>- inkişaf üçün qeyri-dövlət kanalları vasitəsilə vəsait cəlb edilməsi imkanlarının məhdudluğu. | Müvafiq məqsədlərin reallaşdırılması üçün dövlətin maliyyə imkanlarına malik olması | Rusiya Federasiyası |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2. | Stimullaşdırıcı model | Sahənin məhsullarının bazarında stabilliyin qorunması, rəqabətqabiliyyətinin yüksəldilməsi istiqamətində iqtisadi stimullaşdırma vasitələrindən geniş istifadə edilməsi | Şərabçılıq məhsullarının inkişaf etmiş bazarlarının mövcud olması; | - stimullaşdırma tədbirlərinin həyata keçirilməsi üçün institutsional və iqtisadi potensialların formalaşdırılması;<br>- bazar mexanizmlərinin səhmanlı fəaliyyəti. | Avropa Birliyinə üzv olan ölkələr |
| 3. | Liberal model | Dövlətin fəaliyyətinin əsasən sahədə əlverişli mühitin yaradılmasına yönəldilməsi | - sahəyə yeni sərmayəçilərin, o cümlədən xarici investorların geniş cəlb edilməsinə tələbat yaranması;<br>- innovativ inkişafa güclü təkan verilməsinin zəruriliyi | İnvestorlar üçün əlverişli fəaliyyət şəraitinin təmin edilməsinə yönəldilmiş davamlı dövlət siyasəti | Çili |
| 4. | Qarışıq model | Üzümçülük və şərabçılığın inkişafına şərait yaradılması məqsədilə dövlət tərəfindən birbaşa kömək, həvəsləndirici və yönəldici tədbirlərin bu və ya digər tərkibdə birgə tətbiqi | - sahənin məhsullarının rəqabətqabiliyyətliliyinin təmin olunmasının dəstəklənməsinə xüsusi ehtiyacın olması;<br>- sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin iqtisadi imkanlarının məhdud olması | - dövlətin müvafiq maliyyə imkanlara malik olması;<br>-sahənin inkişaf potensialının nisbətən geniş olması | Argentina, iqtisadiyyatında üzümçülük və şərabçılıq sektoru olan keçmiş sosialist ölkələri |

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Müasir şərait üçün paternalist modelin digər modellərlə əvəz edilməsinin birtərəfli xarakter aldığını söyləmək mümkündür. Bu model öz yerini, bir qayda olaraq, qarışıq və stimullaşdırıcı modelə verir. Üzümçülük və şərabçılıqda iqtisadi tənzimləmə modellərinin bir-birini əvəz etməsi proseslərində qeyd edilənlərə səciyyəvi misal kimi sahənin elmi təminatının təşkilini göstərmək olar. Paternalist model çərçivəsində sahənin elmi təminatı bütünlüklə dövlət hesabına həyata keçirilir. Elmi-tədqiqat işləri ixtisaslaşmış dövlət institutları tərəfindən aparılır. Tədqiqat işləri əsasən müstəqil (özəl) araşdırma

qurumları tərəfindən həyata keçirildiyi hallarda da maliyyələşdirmə müvafiq layihələr üzrə bağlanılan müqavilələr əsasında dövlət vəsaitləri hesabına təmin olunur.

Stimullaşdırıcı və qarışıq modellərdə elmi təminat məsələlərinin həllində dövlətlə yanaşı istehsalçı subyektlərin birlikləri və ayri-ayri şirkətlər də iştirak edirlər. Liberal model çərçivəsində isə elmi-tədqiqatlar şərabçılıq müəssisələrinə məxsus qurumlar tərəfindən maliyyələşdirilir. Bu qurumlar əsasən şərabçılıq müəssisələri tərəfindən yaradılır və istehsalın bütün silsiləsi üzrə innovasiyalar təklif edirlər, habelə strateji və təcrübi tədqiqatlar aparırlar.

Paternalist modeldən digər modellərə keçid üzümçülük və şərabçılığın tənzimlənməsinin təşkilati-institutusional strukturunun formalaşmasına da öz əksini tapır. Həmin modellər çərçivəsində xüsusi tənzimləmə qurumunun yaradılması praktikası tətbiq olunur. Bu qurumların funksiyaları və strukturları sahənin inkişaf səviyyəsi, qərarlaşmış idarəetmə ənənələri və həyata keçirilən strategiyalar kimi amillərin təsiri ilə formalaşır. Bununla əlaqədar olaraq, göstərilən qurumların yaradılmasına fərqli yanaşmalar özünə yer tapır. Tənzimləmə qurumu bir halda dövlət təşkilatı statusunda, digər halda isə özəl sektorun nümayəndələrinin də iştirak əsasında xüsusi hüququn subyekti statusunda formalaşdırılır.

**"Postsosialist iqtisadiyyatı şəraitində üzümçülük və şərabçılığın tənzimlənməsi sisteminin formalaşması"** adlı **ikinci fəsildə** faktiki materiallar əsasında müasir şəraitdə üzümçülük və şərabçılığın inkişafında əsas meyllər aşkar olunmuş və ətraflı şərh edilmişdir. Üzümçülük və şərabçılığın bərpası və inkişafına dövlət köməyi mexanizmlərinin qurulması və inkişafı prosesləri təhlil edilmiş, prioritetlərə münasibət bildirilmişdir. Fəslin sonunda üzüm və şərab məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin qurulması mühiti və vasitələri səciyyələndirilmiş, onların inkişafı və təkmilləşdirilməsi imkanları göstərilmişdir.

Ulu Öndərin bilavasitə rəhbərliyi ilə keçən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində Azərbaycanda üzüm istehsalı və emalının inkişaf etdirilməsi ilə bağlı tarixi əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bunların nəticəsində 1969-1981-ci illərdə üzümlüklərin sahəsi 2,3 dəfə genişlənərək 274,2 min hektara, üzüm

istehsalının həcmi isə 6.3 dəfə artaraq 1707.3 min tona çatmışdır. Üzüm istehsalının həcminə görə Azərbaycan keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalar arasında birinci yerə çıxmışdır. Üzüm istehsalı ilə yanaşı olaraq, respublikada bu məhsulun emalı da bazası da inkişaf etdirilmiş, ümumi emal güclərinin dəfələrlə artmasını təmin edən müəssisələr yaradılmışdır. İstehsal olunan şərabçılıq məhsulları keçmiş İttifaqın bütün regionlarında reallaşdırılmaqla yanaşı, həm də xarici bazarlara ixrac olunmuşdur.

Üzümçülük və şərabçılığın genişmiqyaslı inkişafı Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsində, eləcə də yüksək gəlirli sahə kimi, regionlarda yaşayanların həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır. Lakin sonrakı dövrlərdə keçmiş SSRİ-də həyata keçirilən və son nəticədə, əslində, uğursuzluğa düçar olan antialkoqol kampaniyası ilə bağlı Respublika üzrə üzümçülük və şərabçılıq sahəsi tənəzzülə uğramışdır. 1988-1992-ci illərdə üzüm istehsalının həcmi 2,4 dəfə, şərab məhsullarının həcmi isə 2 dəfədən dəfə aşağı düşmüşdür.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra, ölkəmizdə Ulu Öndər H. Əliyevin əsaslı aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının digər sahələri kimi, üzümçülüyün də bərpa və inkişaf etdirilməsinə əlverişli imkanlar açmışdır.

Qarabağ və Şərqi Zəngəzur ərazisində üzümçülüyün innovasiyalı inkişafı və şərabçılıq üçün zəruri infrastrukturun yaradılması məsələləri aktual olaraq qalır. Üzümçülüyün inkişafı üzrə “Dövlət Proqramı”nın reallaşdırılmasına başlanılması ölkədə üzüm plantasiyalarının genişləndirilməsi prosesinin davamlı xarakter almasına yol açmışdır. Eyni zamanda, yeni üzümlüklərin salınması miqyaslarının genişlənməsi ümumi sahələrin tərkibində bar verən sahələrin payının azalması ilə nəticələnmişdir. Bu göstərici 2003-cü ildə 96,1% 2020-ci ildə isə 92,5% təşkil etmişdir. Bar verən sahələrin xüsusi çəkisinin nisbətən aşağı olması öz növbəsində qarşıdakı dövrdə məhsul istehsalının artması potensialının da nisbətən yüksək olmasını ifadə edir.

Üzüm əkmələrinin sahələrinin genişlənməsi araşdırılan dövrdə məhsul istehsalının dinamik surətdə artması meylinin qərarlaşmasını təmin etmişdir. Üzümlüklərdən ümumi məhsul yığımının həcmi 2005-2020-ci illərdə yuxarıda da qeyd edildiyi kimi 2,6 dəfədən çox,

2015-2020-cü illərdə 1,3 dəfədən artıq çoxalmışdır.

Üzümçülün inkişafı sahəsində müşahidə edilən digər əsas meyl məhsuldarlıq göstəricisinin ardıcıl surətdə yüksəlməsidir. Üzümlüklərin 1 hektarından məhsul istehsalının həcmi 2005-2007-ci illərdə 69,5 sentner, 2008-2010-cu illərdə 74,2 sentner, 2016-2018-ci illərdə 83,8 sentner, 2019-2020-ci illərdə 102,1 sentner təşkil etmişdir. Məhsuldarlıqda belə müsbət dinamika üzümçülükdə modernləşdirmə tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı olmuşdur. Yeni üzümlüklər, bir qayda olaraq yüksək məhsuldarlıqlı sortlar, o cümlədən xaricdən gətirilmə tinglər hesabına salınır. Eyni zamanda, əkmələrə qabaqcıl qulluq və becərmə texnologiyaları tətbiq edilir. Müasir mərhələdə üzüm istehsalının həcminin artması onun istiqamətlər üzrə istifadəsində dəyişikliklər ilə müşayiət olunur. Bu barədə 2-ci cədvəlin məlumatları da əyani təsəvvür yaradır.

**Cədvəl 2.**

**2010-2022-ci illərdə Azərbaycan Respublikasında istehsal olunmuş üzümün istifadəsi istiqamətləri**

| Sıra №-si | İstifadə istiqaməti | 2010 | | 2015 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|
| | | Min ton | Yekuna nisbətən %-lə | Min ton | Yekuna nisbətən %-lə | Min ton | Yekuna nisbətən %-lə |
| 1. | Ərzaq məhsulu kimi birbaşa istifadə (emal edilmədən) | 76.9 | 52.9 | 94.1 | 54.6 | 116.3 | 49.5 |
| 2. | Şərab istehsalına | 60.7 | 41.8 | 70.9 | 41.2 | 101,0 | 43.0 |
| 3. | İxrac | 1.0 | 0.7 | 2.0 | 1.2 | 10,6 | 4.5 |
| 4. | İtkilər | 5.2 | 3.5 | 3.6 | 2.1 | 4.9 | 2.0 |
| 5. | İlin sonuna qalıq | 1.6 | 1.1 | 1.6 | 0.9 | 2.3 | 1.0 |
| 6. | Yekunu | 145.4 | 100.0 | 172.2 | 100.0 | 235.0 | 100.0 |

***Mənbə:*** *Azərbaycanın ərzaq balansları (Statisik məcmuə) B., 2016 s. 31; 2022 s 36 Müəllif tərəfindən tərtib olunmuşdur.*

Müasir mərhələdə üzüm bazarı Azərbaycanın kənd təsərrüfatı məhsulları bazarının dinamik inkişaf edən seqmentlərindəndir. Son dövrlərdə üzümə bazar tələbinin nisbətən sürətlə genişlənməsi

səciyyəvidir. 2010-2020-ci illərdə istifadə olunan üzümün həcmi (ilin sonuna qalıq və itkilər nəzərə alınmadan) 138,6 min tondan 223,8 min tonadək artmış və ya 61,5% çoxalmışdır. Tələbin artması ümumən ardıcıl olmamış və dayanıqli xarakter almamışdır (diaqram 3).




| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Üzüm istehsalı | 129,5 | 157,1 | 151 | 167,6 | 201,8 | 208 | 209,8 |
| İstifadə olunan üzüm | 138,6 | 167 | 162,5 | 180,4 | 217,9 | 223,8 | 232,8 |

**Diaqram 3. 2010-2021-ci illərdə üzüm istehsalı və istifadəsinin müqayisəli dinamikası, min ton**

***Mənbə:*** *Azərbaycanın ərzaq balansları (Statisik məcmuə); Azərbaycanda ticarət (Statisik məcmuə) B., 2016; 2022. Müəllif tərəfindən tərtib olunmuşdur.*

Ehtiyatlara nisbətdə idxal 2010-2011-ci illərdə 10%-i keçmiş, lakin sonrakı 3 ildə xeyli azalmış, 2021-ci ildəki artım isə 2010-cu il səviyyəsini ötməni təmin etmişdir (diaqram 4).




**Diaqram 4. Üzüm idxalının mütləq və nisbi göstəriciləri**

*Mənbə: Azərbaycanın ərzaq balansları; (Statistik məcmuə) 2016, s. 31, 2021 s. 36 məlumatları əsasında tərtib edilmişdir.*

Azərbaycanda istehsal olunan şərabin əhəmiyyətli hissəsi ixrac olunur. Aşağıdakı cədvəldən göründüyü kimi, üzüm şərabı ıxracının həcmində, təzə üzüm ixracına analoji olaraq, illər üzrə müəyyən qalxıb-enmələr müşahidə edilsə də, orta müddətli planda ümumi artım meyli özünü büruzə verir. Yalnız 2015-ci və 2020-ci illərdə nisbətən çox azalma baş vermişdir (cədvəl 3).

**Cədvəl 3.**

**2010-2021-ci illərdə Azərbaycan Respublikasında üzüm şərabı ixracının göstəriciləri**

| | | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | İxracın həcmi,<br>- min dal<br>- əvvəlki ilə nisbətən %-lə | 223,9<br>157,7 | 194,5<br>151,1 | 375,0<br>197,9 | 657,6<br>175,4 | 532,3<br>95,1 | 227,3<br>55,0 | 263,4<br>115,9 |
| 2. | İxracın məbləği, min ABŞ dolları | 4034,0 | 3794,7 | 6008,6 | 7721,7 | 7339,9 | 4038,0 | 3961,0 |
| 3. | Üzüm şərabı ixracinin hazır ərzaq məhsul-ları, spirt və spirtsiz içkilər, sirkə, tütün mal qrupunda xüsu-si çəkisi, %-lə | 1,9 | 1,4 | 5,4 | 8,5 | 8,3 | 4,9 | 5,0 |

*Mənbə: Cədvəl Azərbaycanın xarici ticarəti 2019 statistika məcmuəsi s. 57, 78, 80; 110; 2021 statistika məcmuəsi s.82 məlumatları əsasında tərtib edilmişdir.*

Üzüm şərabının ixrac coğrafiyası əhatə olunan ölkələrin və regionların sayı baxımından çox da geniş deyil. Azərbaycan şərabını idxal edən ölkələr arasında ənənəvi olaraq Rusiya Federasiyası dominantlıq edir

Vergi güzəştlərinin tətbiqi müasir şəraitdə üzüm istehsalçılarının maliyyə təminatının əhəmiyyətli dərəcədə gücləndirilməsinə imkan açmışdır. Kənd təsərrüfatına dövlət dəstəyi sisteminin formalaşdırılması sonrakı mərhələdə aqrar istehsalçılara texnikanın

və digər istehsal vasitələri növlərinin güzəştli şərtlərlə lizinqə verilməsinin tətbiqi davam etdirilmişdir.

Kənd təsərrüfatına dövlət köməyinin inkişafında bu sahədə fəaliyyət göstərən istehsalçılar üçün subsidiyaların verilməsi də mühüm rola malikdir. Aqrar istehsalçıların dəstəklənməsinin bu forması ölkəmizdə 2007-ci ildən başlayaraq tətbiq edilmişdir. Kənd təsərrüfatı istehsalçılarına, o cümlədən üzüm istehsalına görə subsidiyaların digər mühüm forması gübrələrin güzəştli satışı olmuşdur. Aqrar istehsalçıların, üzümçülüyün də yararlandığı subsidiyalaşdırma çoxşaxəli xarakter almışdır.

Üzümçülük və şərabçılıqda iqtisadi tənzimləmə sisteminin digər mühüm elementlərindən olan istehsalçılar üçün kredit resurslarının əlyetərliliyinə əlverişli şərait yaradılması da sahənin ümumi inkişaf strategiyanın reallaşdırılması vəzifələrinə uyğun qurulur.

Üzümçülük və şərabçılığın sahəsinin yüksək kapital tutumlu olması nəzərə alınmaqla, müəyyən olunmuş sürətli inkişaf strategiyasının reallaşdırılması yönümdə investisiya layihələrinin maliyyələşdirilməsinin qarşıdakı dövrdə prioritetlik verilməsi məqsədəuyğundur.

Üzümçülük və şərabçılığın tənzimlənməsi sisteminin formalaşmasının nəzərdən keçirdiyimiz ikinci mərhələsində yaradılan mexanizmlər son nəticədə sahənin müvafiq istiqamət üzrə irəliləyişlərini təmin etmişdir.

Ümumiyyətlə, nəzərə almaq lazımdır ki, üzümçülük və şərabçılığın sürətli genişlənmə strategiyasının həyata keçirildiyi ölkələrdə şərab istehsalı üçün xüsusi icazənin alınmasının tələb olunması göstərilən strategiyanın reallaşdırılmasında digər əngəllərin də meydana gəlməsinə səbəb olur.

Dissertasiya işinin **“Üzümçülük və şərabçılığın tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri”** adlı **üçüncü fəslində** haqqında danışılan sahənin investisiya təminatına dövlət köməyinin gücləndirilməsi imkanları aşkar edilmiş və onların reallaşdırılması yolları göstərilmişdir. Üzüm və şərabçılıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsində iqtisadi tənzimləmə mexanizminin rolunun yüksəldilməsi istiqamətləri müəyyən edilmişdir. Sonda ixracın stimullaşdırılmasına yönəlik

tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinin vasitə və istiqamətləri əsaslandırılmışdır.

Üzümçülüyün tənzimlənməsində Fondun rolunu artırmaq üçün onun fəaliyyət sferasının genişləndirilməsi, inkişaf etmiş üzümçülük və şərabçılıq sferasına malik olan bəzi ölkələrin müvafiq təcrübəsini nəzərə almaqla, onun çoxfunksiyalı instituta çevrilməsi də vacibdir. Bununla əlaqədar, müvafiq dəyişikliklərdən sonra həmin qurumun "Üzümçülüyün inkişafı fondu" adlandırılması məqsədəuyğun olacaqdır.

Üzümçülük və şərabçılığın tənzilmənməsinin iqtisadi mexanizminin təkmilləşdirilməsi istər qisa, istərsə də orta və uzunmüddətli dövrlərdə əhəmiyyətli dərəcədə bu sahənin inkişafı üzrə məqsədli kredit xətlərinin genişləndirilməsi ilə bağlıdır. Sahənin investisiya tutumluğunun yüksək olması ilə əlaqədar Fond vasitəsilə maliyyələşdirmə müvafiq tələbatları tam ödənilməsi üçün bütün hallarda yetərli olmayacaqdır. Məqsədli kredit xətləri bütün üzüm və üzümçülük məhsulları istehsalçılarının kifayət həcmlərdə və əlverişli şərtlərlə maliyyə vəsaitləri ilə təmin olunmasına imkan yaratmalıdır.

Sahədə zəruri tədbirlərin sırasına üzümçülüyün investisiya təminatı mexanizmlərinin təkmilləşdirilməsi də daxil edilməlidir. Bu yönümdə tənzimləmənin birbaşa və dolayı vasitələrindən istifadə etmək mümkündür. Birinci istiqamət üzrə üzümçülük sahəsində yüksək təbii-iqlim potensiyalına malik olan ənənəvi istehsal regionlarında reallaşdırılmaq üçün nəzərdə tutulan investisiya layihələrinin maliyyələşdirilməsiə üstünlük verilməklə yanaşı, həmin layihələr üçün vəsaitlərin nisbətən daha əlverişli şərtlərlə ayrılması, o cümlədən vəsaitlərin daha kiçik faizlərlə verilməsi məqsədəuyğun hesab edilə bilər. İkinci istiqamət üzrə isə ənənəvi üzümçülük regionlarında yeni plantasiyaların salınmasına investorların marağını artırmaq məqsədilə həmin regionlarda üzüm bağlarının becərilməsi ilə bağlı verilən subsidiyaların digər regionlara nisbətən daha əlverişli şərtlərlə verilməsi ola bilər. Belə yanaşma, ölkədə iqtisadi rayonlar üzrə kənd təsərrüfatının ixtisaslaşmasının təkmilləşdirilməsi üçün iqtisadi vasitələrdən istifadənin genişləndidilməsinə dair dövlət siyasətinin reallaşdırılmasına uyğun gəlir.

İqtisadi tənzimləmə mexanizminin təkmilləşdirilməsi şərabçılıq

məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsində də əhəmiyyətli rol oynaya bilir. Müasir şəraitdə dünya şərab məhsulları bazarında rəqabətin güclənməsi və belə şəraitdə innovasiya yönümlü texnologiyaların rolunun artması səciyyəvidir. Texnoloji proseslərin təkmilləşdirilməsi hesabına rəqabət üstünlüyünün təmin edilməsi istehsal xərclərinin aşağı salınması strategiyasının zəruri tərkib hissəsi kimi çıxış edir. Mütəxəssislər bu baxımdan şərabçılıqda enerjiqoruyucu sürətli hazırlama texnologiyasının tətbiqini perspektivli dəyərləndirirlər. Eyni zamanda markalı şərabların və digər şərabçılıq məhsullarının hazırlanmasında müvafiq imkanları genişləndirən yeni nəsil ferment preparatlarının, diskoid kremniya preparatlarının, müasir dozator nasoslarla effektli dozalama ilə soyuq hazırlamanın benton suspenziyanın tətbiqi də perspektivli hesab edilir.

Qabaqcıl dünya təcrübələrini nəzərə almaqla üzümçülük və şərabçılıq sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi: a) tədqiqatların çoxkanallı maliyyələşdirilməsi sisteminin qurulmasının; b) üzümçülük və şərabçılıq sahəsində dövlət, müstəqil özəl tədqiqat qurumlarının və istehsalçı şirkətlərin tədqiqat bölmələrinin səmərəli əməkdaşlığına şərait yaradılmasının; c) tədqiqatların insan resursunun keyfiyyətinin yüksəldilməsi, tədqiqat və təhsilin inteqrasiyasının həyata keçirilməsinin təmin edilməsi əsasında aparılması məqsədəuyğundur.

Üzümçülük məhsullarının istehsalında innovativ, resursqoruyucu texnologiyanın tətbiqinin stimullaşdırılmasının əsas vasitəsi olaraq təsərrüfat subyektlərinin investisiya təminatının yaxşılaşdırımaq məqsədilə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun mühüm sahələrindən biri kimi şərabçılıq məhsulları istehsalının inkişafına "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin vəsaitlərinin cəlb edilməsi sahəsində əməli addımların atılması da vacibdir.

Şərabçılığın ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunun ixrac potensiyalının artırılmasında mühüm rol oynayan sahələrindən biri olduğunu nəzərə alaraq, gələcəkdə konkret məhsul növləri üzrə müddətli vergi güzəştlərinin tətbiqi məsələsinə baxılması məqsədəuyğun hesab edilə bilər. Şərab məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsində aksiz vergisi mexanizmi də istifadə edilir.

İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi işi başa çatdıqdan sonra ənənəvi olaraq üzüm bağlarının becərildiyi torpaqların vəziyyəti öyrəniləcəkdir. Ermənilərin ekoloji terroruna məruz qalmış bu ərazilərin üzümçülük məqsədi ilə istifadəsi bu təhlildən sonra əsaslandırıla bilər.

Yeni bazarlara çıxış strategiyasının davam etdirilməsi təmin olunmalıdır. Son dövrlərdə bu istiqamətdə müəyyən irəliləyişlər baş verməkdədir. Artıq, Azərbaycan şərablarının perspektivli Çin bazarına ixracına başlanılmışdır. Azərbaycanın şərabçılıq məhsulları həmçinin Ukraynaya, Belarusa, Baltikyanı ölkələrə, Qazaxıstana da ixrac olunur. Bununla bərabər, istehsal olunan məhsulun rəqabətqabiliyyətliliyini yüksəltməklə ixracın coğrafiyasının daha da genişləndirilməsi imkanlarının reallaşdırılması xüsusi əhəmiyyətə malikdir.

Üzümçülük və şərabçılığın ümumi inkişaf məqsədlərinin reallaşdırılması baxımından yanaşılmaqla, iqtisadi tənzimləmənin kömək, stimullaşdırıcı və nizamlayıcı funksiyalarını ayırmaq lazım gəlir. İqtisadi praktikada qeyd edilən funksiyalar qarşılıqlı əlaqəli şəkildə reallaşdırılmaqla vahid tənzimləmə sistemin elementlərinə çevrilirlər.

Təcrübədə üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə mexanizmlərini müxtəlif dövrlərdə konkret şəraitə uyğunlaşdırmağa və sahənin inkişaf məqsədlərinə daha münasib şəkildə yönəltməyə imkan verən qarışıq model daha geniş tətbiq edilir. İqtisadiyyatlarında sistem transformasiyalarının keçirilmiş olduğu digər ölkələr kimi, Azərbaycanda da, üzümçülük və şərabçılığın inkişafına şərait yaradılması məqsədilə dövlət tərəfindən birbaşa kömək, həvəsləndirici və yönəlidici tədbirlərin bu və ya digər tərkibdə birgə tətbiqinə əsaslanan qarışıq model istifadə olunur. Üzümçülük və şərabçılığın iqtisadi tənzimləmə modellərinin formalaşması dinamik səciyyəlidir və ayrı-ayrı modellərin bir-birini əvəzləməsi baş verə bilir. Qloballaşma proseslərinin tələblərinə və ümumi inkişaf məntiqinə uyğun olaraq, üzümçülük və şərabçılığın iqtisadi tənzimlənməsində liberal modelə keçid trendinin üstünlük qazanacağını demək mümkündür.

Göstərilən istiqamətdə aşağıdakıların həyata keçirilməsi məqsədəuyğun hesab edilir: a) sahənin inkişaf etdirilməsi ilə bağlı

digər dövlətlərin, o cümlədən post-sosialist ölkələrinin müsbət təcrübəsinə uyğun olaraq, müvafiq yönümlü layihələrin maliyyələşdiriməsi məqsədilə “Üzümçülüyün İnkişafı Fondu”nun yaradılması; b) üzümçülük və şərabçılığın inkişafı üzrə məqsədli kredit xətlərinin genişləndirilməsi; c) sahədə investisiya qoyuluşlarına, ilk növbədə emal və saxlama sferalarına yönəldilmək üçün əsaslı vəsaitlərə əlyetərliliyin yaxşılaşdırılması məqsədilə hazırda fəaliyyət göstərən inkişaf institutlarının, o cümlədən Azərbaycan İnvestisiya Şirkətinin imkanlarının geniş reallaşdırılması məqsədəuyğundur; ç) üzümçülüyün ərazi strukturunun təkmilləşdirilməsi əsasında sahənin potensiyalının dolğun reallaşdırılması, üzüm istehsalı üçün daha əlverişli təbii-iqlim şəraitinə malik olan regionların prioritetliyinin təmin edilməsi məqsədilə investisiyaların təşviq mexanizminin əhatə dairəsinə aid edilən ərazilərin genişləndirilməsi istiqamətində təkmilləşdirilməsi və bununla yanaşı, uzunmüddətli kreditlər üçün faizlərin, həmçinin üzümçülük sahəsinin inkişafı üzrə verilən subsidiyaların differensiyallaşdırılması mexanizmlərindən istifadə edilməsi zəruridir.

İqtisadi tənzimləmə mexanizminin təkmilləşdirilməsi üzümçülük və şərabçılığın inkişafında digər prioritet vəzifə olan məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsində də əhəmiyyətli rol oynaya bilər. Bununla əlaqədar, hazırkı mərhələdə əsas istiqamətlərdən biri kimi innovasiya yönümlü texnologiyaların tətbiqinin genişləndirilməsi məqsədilə müasir dünya təcrübəsini nəzərə almaqla, bu sahədə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinin institutsional strukturunun və maliyyəlşdirilməsi formalarının diversifikasiyası təmin edilməsi məqsədəuyğundur. Hazırkı şəraitdə istehsalçılar üçün dövlət tərəfindən tətbiq edilən müvafiq yardım və güzəştlər digər kənd təsərrüfatı sahələri kimi, üzümçülükdə də xərclərə kömək əsasında məhsul istehsalının stimullaşdırılmasında əhəmiyyətli rol oynayır. Bununla yanaşı, ilk növbədə, şərabçılığın ixrac potensialının inkişafının stimullaşdırılması məqsədilə, sahənin intensiv genişləndirilməsi dövrü üçün, istehsal olunub emal müəssisələrinə təhvil verilən texniki üzüm növlərinin hər kiloqramı üçün subsidiyaların verilməsi məsələsinə baxılması məqsədəuyğun hesab edilə bilər.

Üzümçülük və şərabçılığın inkişafı, o cümlədən istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsində vergi mexanizminin fəal rolunun təmin olunmasına ehtiyac vardır. Bu məqsədlə, verginin çoxhədəfli vasitə kimi istifadə olunması vacib məsələ kimi qarşıya çıxır. Daxili və xarici bazarlarda rəqabətqabiliyyətli şərab məhsullarının istehsalının stimullaşdırılması sahəsində dünya təcrübəsi nəzərə alınmaqla, vergi mexanizminin təkmilləşdirilməsinin aşağıdakı istiqamətlərini ayırmaq olar: ayrı-ayrı təbii-iqlim zonalarının yüksək keyfiyyətli şərablar istehsalı üçün xammal yetişdirilməsi sahəsində mövcud olan torpaq və iqlim potensiyalı tam reallaşdırılması məqsədilə kiçik ölçülü təsərrüfatlar üçün (sənaye üzümçülüyünə yararlı ərazilərinin aqroekoloji mikrorayonlaşdırılması, bütün hallarda konkret şəraitə uyğun olan sortların əkilməsinin tətbiqi şərti ilə) vergi güzəştlərinin tətbiqi; xarici bazarlarda tələbin yüksək olduğu şərab məhsullarının geniş çeşiddə istehsalı məqsədilə bazar konyukturalarını nəzərə almaqla qisa və orta müddətli dövrlər üçün güzəştli vergilərin tətbiqi; şərab məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsi istiqamətində aksiz vergisi mexanizminin optimallaşdırılması.

Göstərilən problemin həlli əhəmiyyətli dərəcədə üzümçülük və şərabçılığın inkişafının müvafiq dünya praktikasına uyğun, səmərəli iqtisadi tənzimləmə mexanizmlərinin formalaşdırılması ilə bağlıdır. Hazırki şəraitdə iqtisadiyyatın bu sektorunda sürətli inkişafa əlverişli imkanların təmin edilməsi tələbləri nəzərə alınmaqla, dövlət tərəfindən həyata keçirilən iqtisadi tənzimləmənin, o cümlədən müvafiq kömək və stimullaşdırma qaydalarının daha da təkmilləşdirilməsinə ehtiyac vardır.

Müasir şəraitdə həmin sistem çərçivəsində iqtisadi tənzimləmənin yönəldiyi hədəflər arasında sahənin potensiyalının reallaşdırılması, son istehlaka hazır məhsulların qida kimi təhlükəsizliyi və ekoloji təmizliyinin təmin edilməsi, onların son istehlakçı tələblərinə cavab verən çeşid və əsas keyfiyyət göstəricilərinin təmin olunması, milli şərabçılıq sahəsinin daxili və beynəlxalq bazarlarda rəqabət-qabiliyyətinin təmin olunması ön planda dayanır.

Üzümçülük və şərabçılığın ümumi inkişaf məqsədlərinin reallaşdırılması baxımından yanaşılmaqla, iqtisadi tənzimləmənin

kömək, stimullaşdırıcı və nizamlayıcı funksiyalarını ayırmaq lazım gəlir.

İqtisadi praktikada qeyd edilən funksiyalar qarşılıqlı əlaqəli şəkildə reallaşdırılmaqla vahid tənzimləmə sistemin elementlərinə çevrilirlər.

Müasir şəraitində Azərbaycan Respublikasında aqrar-semal istehsalının digər sektorları kimi, üzümçülük və şərabçılığın inkişafına çoxşaxəli dövlət köməyi vasitələrinin tətbiqi, üzüm və şərab məhsulları bazarının tənzimlənməsinin çağdaş dünya praktikasına uyğun mexanizmlərinin qurulması həmin sahənin ölkədə sistem transformasiyalarının həyata keçirilməsi gedişində baş vermiş böhrandan sonra bərpası və inkişaf xəttinə çıxarılmasında mühüm rol oynamışdır. Bununla yanaşı, məqsədli Dövlət Proqramları çərçivəsində üzümçülük və şərabçılıqla bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, iqtisadiyyatın uzunmüddətli inkişaf vəzifələri ilə əlaqədar sahənin malik olduğu potensiyalın daha səmərəli istifadəsi məqsədilə sürətli genişlənmə strategiyasının reallaşdırılması baxımından iqtisadi tənzimləmə mexanizmlərinin daha da təkmilləşdirilməsinə ehtiyac yaranır.

Tədqiqat materiallarından çıxış edərək aşağıdakı **nəticələri, yeni elmi yanaşmaları, təklif və tövsiyələri** ümumiləşdirməyi lazım bilmişik:

1) sahənin inkişaf etdirilməsi ilə bağlı digər dövlətlərin, o cümlədən post-sosialist ölkələrinin müsbət təcrübəsinə uyğun olaraq, müvafiq yönümlü layihələrin maliyyələşdiriməsi məqsədilə "Üzümçülüyün İnkişafı Fondu"nun yaradılması. Azərbaycan Respublikasının qanunvericilik bazası belə yönümlü qurumun yaradılmasına imkan verir. Eyni zamanda, üzümçülük və şərabçılığın inkişaf şəraitində baş verən irəliləyişlər nəzərə alınmaqla, qeyd edilən fondun formalaşması mənbələrində və fəaliyyət mexanizmlərində dəyişikliklər aparılmalı, onun çoxfunksiyalı maliyyə institutuna çevrilməsi zəruri olacaqdır;

2) üzümçülük və şərabçılığın inkişafı üzrə məqsədli kredit xətlərinin genişləndirilməsi. Bununla bağlı, Sahibkarlığın İnkişafına Kömək Fondunun imkanlarından istifadənin davam etdirilməsi ilə

yanaşı, gələcəkdə investisiya təyinatlı kreditlərin verilməsində "Üzümçülüyün İnkişafı Fondu"nun geniş imkanlarının təmin edilməsi, habelə dövlət kapitalının iştirakı ilə yaradılan ixtisaslaşdırılmış aqrar-sənaye bankı vasitəsilə məqsədli kredit xətlərinin reallaşdırılması əlverişli hesab edilir;

3) sahədə investisiya qoyuluşlarına, ilk növbədə emal və saxlama sferalarına yönəldilmək üçün əsaslı vəsaitlərə əlyetərliliyin yaxşılaşdırılması məqsədilə hazırda fəaliyyət göstərən inkişaf institutlarının, o cümlədən Azərbaycan İnvestisiya Şirkətinin imkanlarının geniş reallaşdırılması məqsədəuyğundur;

4) üzümçülüyün ərazi strukturunun təkmilləşdirilməsi əsasında sahənin potensiyalının dolğun reallaşdırılması, üzüm istehsalı üçün daha əlverişli təbii-iqlim şəraitinə malik olan regionların prioritetliyinin təmin edilməsi məqsədilə investisiyaların təşviq mexanizminin əhatə dairəsinə aid edilən ərazilərin genişləndirilməsi istiqamətində təkmilləşdirilməsi və bununla yanaşı, uzunmüddətli kreditlər üçün faizlərin, həmçinin üzümçülük sahəsinin inkişafı üzrə verilən subsidiyaların differensiyallaşdırılması mexanizmlərindən istifadə edilməsi zəruridir.

İqtisadi tənzimləmə mexanizminin təkmilləşdirilməsi üzümçülük və şərabçılığın inkişafında digər prioritet vəzifə olan məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsində də əhəmiyyətli rol oynaya bilər.

5) Bununla əlaqədar, hazırkı mərhələdə əsas istiqamətlərdən biri kimi innovasiya yönümlü texnologiyaların tətbiqinin genişləndirilməsi məqsədilə müasir dünya təcrübəsini nəzərə almaqla, bu sahədə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinin institutsional strukturunun və maliyyəlşdirilməsi formalarının diversifikasiyası təmin edilməsi məqsədəuyğundur.

6) Bununla yanaşı, üzümçülük və şərabçılıq sahəsində dövlət, müstəqil özəl tədqiqat qurumlarının və istehsalçı şirkətlərin tədqiqat bölmələrinin səmərəli əməkdaşlığına şərait yaradılması ilə yanaşı, innovativ inkişafda insan resursunun rolunun yüksəldilməsi üçün tədqiqat və təhsilin sıx inteqrasiyasının təmin olunmasına şərait yaradılmalıdır.

7) Hazırkı şəraitdə istehsalçılar üçün dövlət tərəfindən tətbiq edilən müvafiq yardım və güzəştlər digər kənd təsərrüfatı sahələri kimi, üzümçülükdə də xərclərə kömək əsasında məhsul istehsalının stimullaşdırılmasında əhəmiyyətli rol oynayır. Bununla yanaşı, ilk növbədə, şərabçılığın ixrac potensialının inkişafının stimullaşdırılması məqsədilə, sahənin intensiv genişləndirilməsi dövrü üçün, istehsal olunub emal müəssisələrinə təhvil verilən texniki üzüm növlərinin hər kiloqramı üçün subsidiyaların verilməsi məsələsinə baxılması məqsədəuyğun hesab edilə bilər.

8) Üzümçülük və şərabçılığın inkişafı, o cümlədən istehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsində vergi mexanizminin fəal rolunun təmin olunmasına ehtiyac vardır. Bu məqsədlə, verginin çoxhədəfli vasitə kimi istifadə olunması vacib məsələ kimi qarşıya çıxır.

9) Müasir şəraitdə üzümçülük və şərabçılıq sahəsinin ixrac potensiyalının zəruri səviyyədə genişləndirilməsi müvafiq yönümdə iqtisadi stimullaşdırma mexanizmlərinin ardıcıl surətdə inkişaf etdirilməsi ilə bağlıdır. Həmin bağlılıq işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində daha nəticəyönümlü olmalıdır. Bununla əlaqədar, qeyri-neft ixracının inkişafına yönəlik tədbirlər sistemi çərçivəsində stimullaşdırılmasının xarici bazarlarda şərab satışının artırılması ilə bağlı xüsusi həvəsləndirmə və dəstəkləmə vasitələrinin tətbiqi ilə tamamlanması zəruridir. Həmin istiqamətdə şərab istehsalçılarına ixrac kreditlərinin verilməsi, ixrac kreditlərinin sığortalanması və həmin kreditlərə təminatların verilməsi, ixrac olunan məhsulların ƏDV-dən azad edilməsi, xaric bazarlarda tələbin yüksək olduğu məhsulların ixracda xüsusi çəkisinin artırılmasını təmin edən layihələrin həyata keçirilməsinə məqsədli maliyyə yardımlarının göstərilməsi, habelə şərab ixracatçılarına dövlət tərəfindən təşkilati və texniki dəstək tədbirlərinin çeşidinin və əhatə dairəsinin genişləndirilməsi məqsədəuyğundur.

**Dissertasiya işinin əsas müddəaları, əldə edilmiş nəticə və təkliflər müəllifin həmmüəllifsiz dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Üzümçülük və şərabçılıq kompleksinin xüsusiyyətləri və sahənin tənzimlənməsini şərtləndirən amillər. // – Bakı: "Azərbaycan Aqrar Elmi" elmi-nəzəri jurnal, 2019, № 2. – s. 133-137.
2. Azərbaycanda üzümçülüyün və şərabçılığın inkişafı. // – Gəncə: Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsi "Xəbərlər məcmuəsi", 2020, № 1 (79). – s. 99-108.
3. Üzümçülük klasterinin inkişafını şərtləndirən amillər. // – Bakı: Ümumilli lider H.Əliyevin anadan olmasının 97 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan milli iqtisadi inkişaf modeli" mövzusunda elmi konfrans, "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal, 2020, № 2. – s. 370-371.
4. Üzümçülük və şərabçılığın inkişafına dövlət köməyinin formalaşdırılması mexanzimləri. // – Bakı: "Tikintinin iqtisadiyyatı və menecment" elmi-praktiki jurnal, 2020, № 3. – s. 13-19.
5. Функции и модели механизма экономического регулирования виноградарства и виноделя. // – Москва: Вестник Алтайской Академии Экономики и Права, 2021, № 8 (1). – s. 9-15.
6. Üzümçülük və şərabçılıq kompleksində ixracın stimullaşdırılması mexanzimlərinin təkmilləşdirilməsi. // – Bakı: "Kooperasiya" elmi-praktik jurnal, 2021, № 4. – s. 135-142.
7. Yerli şərab məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələləri. // – Bakı: Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası "Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, 31 may, 2021. – s. 181-183.
8. Вопросы регулирования экспорта винодельческой продукции. // – Москва: Научный форум: экономика и менеджмент, 2021, № 6 (51). – s. 24-31.
9. Azərbaycanda üzümçülük sahəsinin inkişaf və perspektivləri. // – Mingəçevir: Mingəçevir Dövlət Universiteti, "Heydər Əliyev

dühası və müasir Azərbaycan” mövzusunda elmi-nəzəri konfrans, 4-5 may, 2022, –  s. 251-253.

10. Ağdamda üzümçülük və şərabçılığın yenidən bərpası. // – Ağdam-Bakı: “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfransın materialları, 16-17 sentyabr 2022. – s. 176-181.



Dissertasiyanın müdafiəsi 14 fevral 2024-cü il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 13 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.01.2024

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45631 işarə

Tiraj: 100